# Fugaton®

## SƏTHİ SƏRTLƏŞDİRİLMİŞ BETON ARALIQLARI ÜÇÜN QARIŞIQ




**Məhsul haqqında**
Birkomponentli, müxtəlif iqlim şəraitlərinə, ultrabənövşəyi şüalara və atmosferdə olan kimyəvi maddələrin mənfi təsirlərinə qarşı dözümlü, elastiki, istifadəyə hazır aralıq doldurma məhsuludur.
ASTM C 920 standartına uyğundur.

**İstifadə sahələri**
Bu aralıq doldurma qarışığından:
• daxili və xarici məkanlarda, üfüqi səthlərdə;
• döşəmələrdə;
• sənaye sahələrində;
• səth sərtləşdiricilərində;
• avtoparklarda, nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi yerlərdə;
• beton səthlərin aralıqlarının doldurulmasında istifadə olunur.

**Üstünlükləri**
• istifadəyə hazırdır və rahat tətbiq olunur;
• solmaya qarşı davamlıdır;
• yüksək sukeçirməzlik xüsusiyyətinə malikdir;
• ani temperatur dəyişikliyinə davamlıdır;
• istifadə müddəti uzundur.

**İstifadə qaydaları**
***Səthin hazırlanması.*** İstifadədən əvvəl məhsulun tətbiq olunacağı yer toz və digər qalıqlardan təmizlənməlidir. Astara ehtiyac yoxdur. Fugaton məhsulunu istifadə edərkən aralıqların kənarlarına tökülmənin qarşısını almaq məqsədi ilə xüsusi bantlar yapışdırılır.

***Tətbiqi.*** Məhsul aralıq doldurma tapançası vasitəsi ilə aralıqlara tam olaraq (sonradan çökmə hallarının yaranması üçün) doldurulur. Aralıqların doldurulması zamanı hava boşluqlarının qalmamasına diqqət edilməlidir. Aralıqlar doldurlduqdan sonra bantlar sökülməlidir.

***Tövsiyələr.*** Fugaton aralıq doldurma qarışığının istifadə olunduğu mühitin temperaturu $+5^{0}$C-dən aşağı və $+30^{0}$C-dən yuxarıdırsa, lazımi temperatur təmin olunmalıdır. İsti ($+30^{0}$C-dən yuxarı), yağışlı və küləkli havalarda istifadə olunmamalıdır. İstifadə müddəti keçmiş Fugaton aralıq doldurma qarışığına qətiyyən başqa maddə əlavə edilməməlidir. Aralıq doldurma işi sona çatdıqdan 24-48 saat sonra işin icra edildiyi yer istifadəyə verilə bilər. İstifadədən sonra bütün alət və ləvazimatlar su ilə təmizlənməlidir. Fugaton aralıq doldurma qarışığı sərtləşdikdən sonra ancaq mexaniki yolla səthdən təmizlənməlidir.

**Texniki göstəricilər**

| | |
|---|---|
| **Rəngi** | açıq boz |
| **Elastikliyi:** | 25 % |
| **Səthin möhkəmliyi:** | 25 Shore D |
| **Yapışma müqaviməti:** | 2,10 $N/mm^2$ |
| **İstifadə temperaturu:** | $+5^{0}$C – $+32^{0}$C |
| **Qopmada uzanma:** | 800% |
| **Quruma müddəti:**<br>**• səthin quruması**<br>**• tam quruma** | <br>24 saatdan sonra<br>7 gündən sonra |
| **Büzülmə:** | yoxdur |
| **Qablaşdırma:** | 4 kq, 10 kq və 25 kq-lıq plastik vedrələrdə |

**Sərfiyyat**
Aralıqların enindən və dərinliyindən asılı olaraq aralıq doldurma qarışığının sərfiyyatı dəyişkəndir.

**Saxlama müddəti və qaydası**
Açılmamış qablarda quru şəraitdə 12 ay saxlanıla bilər.

**Xəbərdarlıqlar**
• məhsulun qatqılarla zəngin olduğunu nəzərə alaraq, dəriyə və ya gözə düşdükdə dərhal su ilə yuyun;
• istifadə olunan qabların təmiz olmasına xüsusi diqqət edin;
• yuxarıdakı göstəricilər $+23^{0}C\pm2^{0}C$ temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

**Zəmanət və texniki dəstək**
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• "Mətanət A" şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə "Mətanət A" şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün "Mətanət A" şirkətinə müraciət edin!